**15.01.2009 15:09**
**MƏNBƏ: ANS-PRESS**

# Bakı-Tiflis-Qars dəmiryol layihəsinin Gürcüstan hissəsinin inşaatına mart ayında yenidən start veriləcək

## İnşaat işlərini aparan şirkətin rəsmisi Vüsal Aslanov qlobal maliyyə böhranının layihəyə heç bir təsir göstərmədiyini bildirib

Bakı-Tiflis-Qars dəmiryolu xətti layihəsinin Axalkalakidən Qarsa qədər olan hissəsində yeni xəttin salınması üçün inşaat işlərinin dayanmasına səbəb hava şəraitidir.

İnşaat işlərini aparan «Azərinşaatservis» Azərbaycan şirkətinin baş direktorunun müavini Vüsal Aslanov qlobal maliyyə böhranının layihəyə heç bir təsir göstərmədiyini bildirib. «Dekabrın 15-dən etibarən həmin ərazidə bir metrə yaxın qar yağıb, yollar buz bağlayıb. Ağır texnikaların hərəkəti və eyni zamanda işçilərin açıq havada işləməsi mümkün olmayıb. Biz müvvəqqəti olaraq tikinti işlərini saxlamışıq. Sadəcə olaraq, ilkin layihə hazırlanarkən yolun geoloji quruluşu tam öyrənilmədiyi üçün müəyyən texniki problemlərlə rastlaşdıq. Qərara gəlinib ki, yenidən hər şey öyrənilsin və yeni layihə hazırlansın. Amma bütövlükdə yol Avropa standartlarına uyğun tikilməkdədir və ilkin düşünülmüş plana dəyişiklik yoxdur».

Vüsal Aslanov tikinti işlərinə bu ilin mart ayından etibarən yenidən start veriləcəyini qeyd edib. /ANS TV/

*© 2008 Bütün hüquqlar qorunur. Xəbərlərdən istifadə edərkən ANS-PRESS-ə istinad zəruridir.*